

**Məlumat üçün bildirək ki, Məmmədbəyova Səadət Fərhad qızı 1958-ci ildə anadan olub. Gəncə musiqi texnikumu və Müəllimlər İnstitutunu bitirib. Əmək fəaliyyətinə Göygöl uşaq musiqi məktəbində fortepiano şöbəsinin müdiri kimi başlayıb. Sonra eyni vəzifəni Gəncə 5 saylı uşaq musiqi məktəbində daşıyıb. 2006-cı ildən Sərkar kənd uşaq musiqi məktəbinin direktorudur.**

Məktəbdə 274 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 62 nəfər müəllim məşğul olur. Müəllimlərin 19 nəfəri ali təhsillidir. Söhbət zamanı Səadət xanım bizi maraqlandıran sualları belə cavablandırdı:

- Ötən illərdə olduğu kimi bu dərs ilində də məktəbimizin şagirdləri respublika və rayon səviyyəli müsabiqələrə fəal qoşulmuş, kollektivi bu möhtəbər tədbirlərdə layiqincə təmsil etmişlər.

Bunlara bir nümunə kimi Gəncə şəhərində keçirilən xalq kollektivlərinin müsabiqəsindəki çıxışımızı göstərə bilərik. Bu işə Respublikanın əməkdar mədəniyyət işçisi Şirin Rzayev rəhbərlik etmişdir. Bakı şəhərində keçirilən skripkaçıların müsabiqəsində isə IV sinif şagirdi Teymur Yusifov fərqlənmişdir. Hər iki halda



# Müsabiqələrə fəal qoşuluruq

**Müsahibimiz Samux rayonundakı Sərkar kənd uşaq musiqi məktəbinin direktoru Səadət xanım Məmmədbəyovadır. O, rəhbərlik etdiyi musiqi məktəbində son illər gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən, gerçəkləşdirdiyi layihələrdən danışır.**

məktəbimizin təmsilçilərinin iştirakı tərifnamə ilə qiymətləndirilmişdir.



Bunlardan başqa Astarada keçirilən uşaq muğam ifaçılarının Respublika müsabiqəsində məktəbimizin şagirdləri Taleh Bağırov, Fuad Ramazanov və Qurban Vəliyev fəal iştirak etmiş və fəxri fərmanla təltif edilmişdir.

Bir qayda olaraq məktəbimizdə bayram tədbirləri, tarixi əlamətdar günlər, yubiley gecələri yüksək səviyyədə təşkil olunur. Bu nəcib işdə, habelə uşaqların təlim-tərbiyəsi, istedadların aşkara çıxarılması və onların gələcək inkişafı qayğısına qalınması işində qabaqcıl müəllimlərimiz Şirin Rzayevin, Pərvanə Mustafayevanın, Arzu Hüseynovanın, Minurə Mustafayevanın, Aybəniz Yaqubovanın, İndira Osmanovanın, Azərtac Cəfərovanın və başqalarının əməyi yüksək qiymətləndirilməlidir.

Sonda bizə hər cür qayğı göstərən, daim fəaliyyətimizlə maraqlanan, bizə hər zaman kömək əli uzadan Samux Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Süleyman Əliyevə kollektivimiz adından dərin təşəkkürümüzü bildirməyi özümə borc bilirəm...

**A.QƏHRƏMANQIZI**



